# P.K.USLAR

Qafqaz dillərinin öyrənilməsi Pyotr Karloviç Usların adı ilə sıx bağlıdır. Qafqaz Ordusunun baş qərargahının general-mayoru, Sankt-Peterburq İmperator Elmlər Akademiyasının akademiki, baron P.K.Usların adı tarixə görkəmli qafqazşünas və lingvist kimi düşüb. Onun qələmindən ləzgi, avar, lak, dargi, tabasaran, abxaz, çeçen dilləri ilə bağlı monoqrafiyalar çıxıb. Ləzgi dili ilə bağlı apardığı tədqiqatların nəticəsi olaraq o, 1896-cı ildə Tiflisdə "Küre dili" adlı kitab çapdan buraxıb.

Pyotr Karloviç 1816-cı ildə Tver quberniyasının Kurovo kəndində anadan olub. Hərbi mühəndis ixtisasını qazanıb, 1837-ci ildə Qafqaz ordusunda xidmətə başlayıb. Qafqazın gözəllikləri, dağlıların adətləri, onların mərdlikləri onu bu yurda bağlayıb. Burada keçirdiyi 3 il onun yaddaşında əbədi iz qoyub. 1840-cı ildə o, İmperator Hərbi Akademiyasına daxil olub, Rusiyanın müxtəlif yerlərində xidmət edib və yalniz 10 ildən sonra yenidən Qafqaza qayıdıb və ömrünün sonuna kimi buradan ayrılmayıb.

1851-ci ildə Qafqaz canişini M.S.Voronsovun məsləhəti ilə İmperator Rus Cəmiyyətinin Qafqaz şöbəsi yaradılıb. Onun həqiqi üzvlərindən biri P.K.Uslar idi. 1858-ci ildə ona Qafqazın tarixini yazmaq tapşırılır. Bunu Qafqazın təbiəti, onun xalqları haqqında dərin biliyi olan insan edə bilərdi. Qafqazın tarixini öyrənmək üçün onun dillərini tədqiq etməyin vacibliyini başa düşən tədqiqatçı fəaliyyətə başlayır. İber-qafqaz dillərini öyrənmək üçün P.Uslar abxaz, sonradan çeçen dili ilə məşğul olur. 1863-cü ildən isə Dağıstan dilləri, o cümlədən avar, ləzgi, lak, dargi və tabasaran dilləri ilə məşğul olur. 1871-ci ildə P.K.Uslar akademik A.Şifnerə "Küre tədqiqatlarını" başa çatdirdığını bildirir. 1872-ci ildə A.Şifner işi sistemləşdirib, onu alman dilində S.Peterburq EA-nin Bülletenində çap edir. Dünya elm aləmi tədqiqatla tanış olur.

Yeni ləzgi əlifbasının tərtibi Usların böyük elmi nailiyyəti idi. Onun əsasında Qəzənfər bəy yeni ləzgi əlifbasını buraxdırır. P.K.Uslar ilk dəfə ləzgi dilinin quruluşunu elmi şəkildə açır, kitabda 1500 sözdən ibarət ləzgi-rus lüğətini verir.

P.K.Uslar 1875-ci ildə, tarixdə özündən etnoqrafiya, dilçilik və linqvistikaya aid böyük irs qoyub həyatdan getmişdir.

Sədaqət Kərimovanin "Qusar, qusarlılar" kitabından götürülüb.